# Prezidentin müraciəti qalib xalqın daha parlaq sabahlara inamını gücləndirdi



***Sentyabrın 27-də Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin Şəhidlərin Anım Günü münasibətilə xalqa müraciəti hər birimizin qəlbini tükənməz qürur və inam duyğuları ilə döyündürdü. Bir daha tam əmin olduq ki, dövlətimiz tərəfindən Vətən müharibəsində iştirak etmiş Azərbaycanın mübariz oğul və qızlarının şücaəti yüksək qiymətləndirilir, bütün şəhidlərimizin xatirəsi əziz tutulur. Döyüş meydanında qəhrəmancasına vuruşmuş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə ehtiram borcumuzdur. Bütün ölkə miqyasında 44 günlük zəfər yürüşünün başlanmasının birinci ildönümününün və şəhidlərin Anım Gününün layiqincə qeyd edilməsi bunun bariz nümunəsidir.***

Prezidentin xalqa müraciətində bir daha vurğulandı ki, bir il öncə – sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı başlanan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqların azad edilməsi məqsədilə müqəddəs Vətən müharibəsinə başlayıb. Rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində ölkənin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa edib. Bütün dünya Vətən müharibəsində qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına Azərbaycanın şanlı qələbə qazanmasının şahidi olub. Bizlərə bu böyük sevinci, tükənməz qüruru yaşadan şəhidlərimizin sayəsində bu gün Azərbaycan dünyanın güclü dövlətləri sırasında qərar tutub.

Bəli, 27 sentyabr şanlı tarixi bir qərarın qəbul edildiyi, monolit xalq-ordu-rəhbər birliyinin təcəssümü olan gündür. İllər, onilliklər, əsrlər ötəcək, amma bu günün əhəmiyyəti azalmayacaq, təravəti solmayacaq. Bu gün Azərbaycan xalqı müzəffər bir xalq kimi başını dik tutaraq yaşayır. Ərazi bütövlüyümüzü təmin etməyimiz, şəhidlərin qanını yerdə qoymamağımız bizə əbədi ruh verməkdədir. Biz münaqişəni hərbi-siyasi yollarla həll etdik, artıq Azərbaycanda “Dağlıq Qarabağ” adlı inzibati ərazi mövcud deyil və əgər kimsə həmin adlı ölünü diriltmək istəyirsə, bunu öz ərazisində etsin, özünə aid olan torpaqlarda “Dağlıq Qarabağ” adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Ancaq Azərbaycanda yox! Ölkəmizdə bu məsələ artıq tarixin arxivinə atılıb. Müdrik Prezidentimizin bu barədə söylədiyi fikirlər hamımıza qol-qanad verir və bizi daha qətiyyətlə irəli aparır.

Beynəlxalq ictimaiyyətin Azərbaycanın aşkar uğurlarını və qələbəsini etiraf etməyə məcbur olması məhz İlham Əliyev siyasətinin təntənəsidir. Müharibədən bir il keçməsinə baxmayaraq, artıq bütün beynəlxalq aləm Azərbaycanın qələbəsi ilə razılaşıb və bu faktla hesablaşmağa başlayıb. Bu gün regionda, o cümlədən Azərbaycan–Ermənistan münasibətlərində söz sahibi olan, gündəliyi diktə edən tərəf də məhz bizik!

Başdan-başa “Polad necə bərkidi” məzmununda olan 27 sentyabr tarixli müraciətdə bir daha vurğulanıb ki, dünyada erməni faşizmini məhv edən Azərbaycan xalqına daha heç bir zaval yoxdur. Mifik “böyük Ermənistan” ideyasını darmadağın edən Azərbaycan Ordusudur, Azərbaycan xalqıdır.

***Fəxrəddin EYVAZOV,***
***YAP Masallı rayon təşkilatının aparat rəhbəri***

Xalq qəzeti 2021.- 29 sentyabr.- S.10.